HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*30 sentyabr 2016-cı il*
*№018 (32)*

*yeni_yol@mail.ru* / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / *qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur*

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ MÜDAFİƏ ƏMƏKDAŞLIĞININ PERSPEKTİVLƏRİNİ MÜZAKİRƏ ETDİLƏR



Sentyabrın 19-da Gürcüstan müdafiə naziri Levan İzoriya ölkəmizdə işgüzar səfərə gələn Türkiyə quru qoşunları komandanı, briqada generalı Salih Zəki Çolakla ikitərəfli əməkdaşlığın fəallaşdırılmasının mümkünlüyü və Gürcüstan-Türkiyə-Azərbaycan münasibətlərinin dərinləşdirilməsi perspektivlərini müzakirə etmişlər.

Gürcüstan müdafiə nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, Gürcüstan müdafiə nazirliyinin rəhbəri Salih Zəki Çolaka Türkiyənin Gürcüstana çoxillik siyasi və əməli dəstəyi üçün təşəkkür edib.

## BAKI-TBİLİSİ-QARS QATARINDA DUŞ KABİNƏ DƏ OLACAQ

İsveçrənin “Stadler Rail Group” şirkəti Berlində keçirilən “InnoTrans 2016” sərgisində Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttində istifadə ediləcək sərnişin vaqonunu nümayiş etdirib.

“Stadler Rail Group” şirkətinin nümayəndəsi Paul Qess bildirib ki, qatarın sürəti saatda 160 kilometrdir və 2017-ci ildə BTQ layihəsinin işə düşməsi ilə istismara veriləcək.

“Stadler” ilə “Azərbaycan Dəmir Yolları” QSC arasında bağlanmış müqaviləyə əsasən BTQ üçün 30 vaqon hazırlanacaq.

Onlardan 18-i 4 yerlik kupelərdən ibarət ikinci dərəcəli, 3-ü ikiyerlik kupelərdən ibarət birinci dərəcəli vaqonlardır. Eləcə də qatarda əlillər üçün kupe və 28 nəfərlik vaqon-restoran da fəaliyyət göstərəcək.



Vaqonlarda sərnişinlərin müasir məlumatlandırma sistemi, vakuum sistemli tualetlər (birinci dərəcəli vaqonların hər kupesində), duş (birinci dərəcəli vaqonların hər kupesində), kondisioner sistemi quraşdırılıb.

SEÇKİ OVQATI VƏ SEÇKİÖNCƏSİ YAŞANANLAR 2
XEYİRXAHLIQLA DOLU FƏALİYYƏT ÖRNƏYİ 3
SEÇKİ HAVASINA KÖKLƏNMİŞ DÜNYA VƏ BİZ 4
AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ: REGİONAL ƏMƏKDAŞLIQ NÜMUNƏSİ KİMİ 5
FACEBOOKDAN GÖRÜNƏN DÜNYA 6
İSMAYIL ŞIXLININ TABİ-İMTAHAN TERMOSU (termoterapiya) 7
MARNEULİDƏ XALQ TEATRLARI FESTİVALI KEÇİRİLİB 8

## KVİRİKAŞVİLİ: SOCAR AZƏRBAYCAN-GÜRCÜSTAN DOSTLUĞUNUN MÖHKƏMLƏNDİRİLMƏSİ SAHƏSİNDƏ BÖYÜK İŞLƏR GÖRÜB



“SOCAR Azərbaycan və Gürcüstan arasında dostluğun, əməkdaşlığın, strateji tərəfdaşlığın möhkəmləndirilməsi sahəsində çox böyük işlər görüb. Biz bunu yüksək qiymətləndiririk” – bu barədə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili jurnalistlərlə söhbətində bildirib.

O, SOCAR-ın Gürcüstan iqtisadiyyatına sərmayə qoyan ən böyük şirkət olduğunu qeyd edib: “Ölkə iqtisadiyyatının inkişafında mühüm işlər yerinə yetirilib. Bizim gələcək inkişafımızla bağlı çox böyük layihələrimiz var”.

“Nəzərdə tutulan layihələr Gürcüstanın müxtəlif sahələrini əhatə edir. Bununla belə, bu, Azərbaycanın və Gürcüstanın maraqlarına xidmət edir” – baş nazir vurğulayıb.

## ROMA PAPASI FRANSİSKİN GÜRCÜSTANA SƏFƏRİ DAVAM EDİR



Roma Papası Fransisk sentyabrın 30-da Gürcüstana səfər edib.

İkigünlük səfəri çərçivəsində Roma Papası Gürcüstan prezidenti Georgi Marqvelaşvili və Bütün Gürcüstan Katalikos-Patriarxı İkinci İlya ilə görüşəcək. Bundan başqa onun yerli katolik icması və xeyriyyə təşkilatlarının nümayəndələri ilə görüşü də planlaşdırılıb. Papa Fransiskin Haldey katolik kilsəsində assur-haldey icmasının nümayəndələri ilə görüşü nəzərdə tutulur.

Oktyabrın 1-də Roma Papası Mixail Mesxi adına stadionda liturgiya keçirəcək, sonra isə Msxetada Svetisxoveli pravoslav kilsəsinə baş çəkəcək.

Oktyabrın 2-də Fransisk Bakıya yola düşəcək və orada paytaxtdakı katolik məbədində papa messası keçirəcək. Onun Azərbaycan prezidenti İlham Əliyev, Qafqaz Müsəlmanlar İdarəsinin rəhbərliyi, Rus pravoslav kilsəsinin və yəhudi icmasının nümayəndələrilə görüşləri planlaşdırılıb. Həmin gün Roma Papası Vatikana qayıdacaq.

## ÖLKƏMİZ BU İL SƏYAHƏT ÜÇÜN 10 UCUZ ÖLKƏ REYTİNQİNƏ DAXİL EDİLİB

Gürcüstan məşhur əyləncə portalı AdMe.ru-nun versiyası üzrə “Bu il səyahət üçün 10 ucuz ölkə” siyahısına düşüb.

Saytın tərtib etdiyi reytinqdə Gürcüstan 6-cı yeri tutub.

AdMe.ru səyahətçilərə Tbilisi, Msxeta, Hərbi Gürcüstan yolu, Vardziya mağara şəhəri, Siqnaxi və bütün Kaxeti, Svaneti, habelə Batumi və Qara dəniz sahillərində olmağı tövsiyə edir.

AdMe.ru-nun versiyası üzrə “Bu il səyahət üçün 10 ucuz ölkə” siyahısının ilk üçlüyünə Ermənistan, Azərbaycan və Serbiya daxildir. Beşliyi Tunis və Özbəkistan tamamlayır. Onluğa həmçinin Hindistan, Polşa, Misir və Qazaxıstan da daxildir.

Qərargahı Kazanda yerləşən AdMe.ru saytı reklam, kreativ və marketinqə dair nəşrdir.



# SEÇKİ OVQATI VƏ SEÇKİÖNCƏSİ YAŞANANLAR

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Ölkəmizin ictimai-siyasi həyatında bir qaynaşmanın, bir vurnuxmanın olmasını yadınıza salmam sizi qıcıqlandıra, əsəblərinizlə oynaya bilər. Bunun fərqindəyəm. Amma bunu demək, yada salmaq da bizim peşə xüsusiyyətimizdir. Nə etməli, bu da bizim boynumuzun borcudur, gərək bacardığımız şəkildə yerinə yetirək. Yoxsa bizi peşəmizə, ən ümdəsi də qələmimizə xəyanətdə suçlayarlar. Hə, onu deyirdim ki, son bir neçə ayda ölkə dovğa qazanı kimi qaynamaqdadır. Söhbətin seçkiöncəsi təbliğatdan, daha doğrusu seçkiqabağı çoxlarının min bir hoqqadan çıxmasından getdiyini anladığınızı güman edirəm. Nədən ki, mən oxucularımdan arxayınam. Yüzdə yüz bilirəm ki, arifə bir işarə də kifayətdir.**

Orasını da deyim ki, hərdən-hərdən seçkiqabağı yaranmış bayram ovqatından, bayram al-əlvanlığından, insanların hərəkətliliyindən, dinamikliyindən xoşum da gəlir. Küçələrə, meydanlara, dalanlara, elektrik dirəklərinə, uzun sözün kəsəsi, ağla gəlməyən yerlərə yapışdırılan tanış-yad simaların bizə baxan irili-xırdalı şəkillərinə baxmaq da adama ləzzət edir. Nə gizlədim, siyasətdən uzaq olsam da, arada mən də özümün şəkillərimi hara gəldi yapışdırıb, dünyaya şəkillərimdən baxmaq eşqinə düşürəm. Mənim bu fikrə düşüb, ondan daşınmam arasında elə də böyük zaman fərqi olmur.

Seçkilərə sayılı günlər qalıb, hələ deyərdim ki, geri sayım çoxdan başlayıb. Namizədlər özlərini, təmsil etdikləri siyasi qüvvələri bacardıqları qədər təbliğ ediblər. Artıq deyiləsini deyiblər. Az qala bütün seçicilərlə təkbətək görüşüb bu və ya digər şəkildə onlardan səs umduqlarını dilə gətiriblər. Onların seçki qərargahları da bu yolda səriştələrini əsirgəməyiblər. Elə yadıma düşmüşkən deyim ki, hələ bu vaxta qədər belə seçki təbliğatının aparılmasının şahidi olmamışıq. Seçki marafonunun iştirakçıları, elə seçicilər də heç durub, dincəlmirlər. Deyəsən, bala-bala seçici də öz səsinin qədir-qiymətini bilməkdədir, öz səsinin əhəmiyyətini dərk etməkdədir. Hətta cəmi bir səsi olan seçicinin bir neçə namizədə, bir neçə siyasi gücə "sənə səs verəcəm" vədində bulunması halları da var. Bunu bir tərəfdən seçicinin get-gedə siyasətin cikinə-bikinə bələd olmasına, cəmiyyətin yuxarıdan aşağıyadək siyasiləşməsinə yozmaq olar. Digər tərəfdən isə lümpen-proletariatın sıralarının durmadan genişlənməsinin ayağına yazmaq mümkündür. Nədən ki, günü-gündən sosial-siyasi simasını itirənlərin sayının artmasını müşahidə etmək o qədər də çətin deyil. Bunun nə dərəcədə yaxşı və ya pis olmasını söyləmək isə mənim peşəmin imkanları xaricindədir.

Dördaylıq seçki marafonu finişə yaxınlaşır. İctimai şüurda bu kampaniya ilə bağlı müxtəlif təbədülatların baş verməsi, çaşqınlıqların meydana çıxması, ağı qaradan, yaxşını pisdən ayırmaqda mürəkkəb stiuasiyaların özünü göstərməsi istənilən cəmiyyət üçün səciyyəvidir. Diqqət yetirsək, Amerika boyda supergücün seçkilərdə necə canfəşanlıq etdiyini, böyük seçki təcrübəsi olan Amerika cəmiyyətinin Hillari Klinton və Donald Tramp dilemmasını çözmək üçün necə bir mücadilə aparmasını fərq edə bilərik. Əhalisinin sayı 320 milyonu keçmiş ABŞ-da heç kim seçkiqabağı və ya seçki ərafəsində qarşıdurmadan, baş verə biləcək təxribatdan danışmır. Amma əhalisi 4 milyondan az olan ölkəmizdə hamı bir-birini hədələməklə məşğuldur, yetkililərimiz tez-tez seçkilərdə qarşdurmadan, münaqişədən qaçmağa çağırışlar edirlər. Bəylər, onsuz da mənim səsimi eşitmək istəməyəcəksiniz, sadəcə olaraq ürəyimdə qalmasın deyə söyləyirəm: "Siz bunları deməklə oğru yadına daşmı salırsınız? Bununla insanları sakitləşdirmək əvəzinə təxribata çəkdiyinizin doğrudanmı fərqində deyilsiniz?".

Seçkiqabağı bir çox siyasətbazın, özünü millətçi hesab edən bir qrup törtöküntünün millətlərarası münasibətləri korlamağa yönəlik çığır-bağırı da ölkəmizin xeyrinə deyil. "Vətənpərvərlər alyansı"nın antitürk məzmunlu seçki çarxının fırladılması Gürcüstanı Türkiyə kimi bir strateji tərəfdaşı ilə üz-üzə qoymurmu? Və çarxı efirində düz altı dəfə verən "Rustavi 2" televiziya şirkətinin direktoru Nika Qvaramiyanın türklərdən üzr diləməsi, sonrakı peşimançılıq fayda verməz effekti yaratmırmı? Bir-iki gün qabaq özünü "Kartuli cala" ("Gürcü gücü") adlandıran millətçi ünsürlərin türklərə məxsus dükan və iaşə obyektlərinə hücum etmələrinin Gürcüstana bir xeyri-bəhri varmı? Cavabında and içərəm ki, tövbə-əstəğfürullah, yoxdur.

**…Sovet dönəmində "Hamı seçkilərə!" adlı bir şüarın hər yerdə asıldığını orta və yaşlı nəslin nümayəndələri yaxşı xatırlamalıdırlar. O üzdən də ölkəmiz üçün bu həssas məqamda ağılla hərəkət edərək, seçim etmək hər birimizin vətəndaşlıq borcumuzdur. De, işimiz avand, seçimimiz düşərli olsun!..**

# TBİLİSİDƏ RƏŞİD BEHBUDOVUN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ GECƏ KEÇİRİLİB

Sentyabrın 27-də Tbilisidə Azərbaycanın görkəmli estrada və opera müğənnisi Rəşid Behbudovun anadan olmasının 100 illiyinə həsr olunmuş musiqi gecəsi keçirilib. Yubiley gecəsi Tbilisi Dövlət Konservatoriyasının səhnəsində baş tutub.

Gecədə Rəşid Behbudovun ifa etdiyi müxtəlif musiqi parçaları nümayiş etdirilib. Konsertdə gürcü bəstəkarı Vaja Azaraşvili, tenor İrakli Murcikneli və Gürcüstanın digər musiqiçiləri və opera ifaçıları iştirak ediblər.

Tədbirin aparıcısı Şota Rustaveli adına Tbilisi Dövlət Teatr və Kino Universitetinin baş elmi məsləhətçisi professor Georgi Dolidze idi. Konservatoriyada Rəşid Behbudovun həyat və fəaliyyətini əks etdirən fotosərgi də nümayiş etdirilib.

Tədbir Gürcüstan mədəniyyət və tarixi abidələrin mühafizəsi nazirliyinin, Kakutsa Çolakaşvili adına Bütün Gürcüstan cəngavər-çuxalılar truppasının, Mirzə Fətəli Axundov adına Azərbaycan mədəniyyət mərkəzinin və "Classic Art M Georgia" təşkilatının dəstəyi ilə baş tutub.



Rəşid Behbudov Tbilisi əsillidir. Müxtəlif vaxtlarda Gürcüstanda, Azərbaycanda oxuyub. O, Avropa qaydasını, müğənni nəfəsini və muğam üçün xarakterik olan sərbəst boğaz səsi ilə oxuma manerasını özündə birləşdirən geniş diapazonlu yüksək tenor (tenor-altino) səsə malik idi.

Qafqazlılar arasında məşhurluğuna görə Rəşid Behbudovla yalnız Müslüm Moqamayev müqayisə oluna bilər.

Müğənninin mahnı repertuarı çox geniş idi. O, Azərbaycan bəstəkarlarının əsərlərini, Qafqaz xalqlarının xalq mahnılarını, rus xalq mahnılarını, XIX əsrin klassik romanslarını və sovet bəstəkarlarının mahnılarını ustalıqla ifa edirdi. Müğənni bir neçə bədii filmdə də çəkilib.

# "RUSTAVİ 2" EFİRDƏN "VƏTƏNPƏRVƏRLƏR ALYANSI"NIN ANTİTÜRK MƏZMUNLU SEÇKİQABAĞI ÇARXINI ÇIXARIB

"Rustavi 2" televiziya şirkəti "Vətənpərvərlər alyansı"nın antitürk məzmunlu seçkiqabağı təbliğat çarxını efirdən çıxarıb. Müvafiq bəyanatla teleşirkətin baş direktoru Nika Qvaramiya çıxış edib.

"Rustavi 2" telekompaniyasının efirində bir neçə dəfə (6 dəfə) "Vətənpərvərlər alyansı"nın açıq-aşkar antitürk xarakteri daşıyan, milli ədavəti qızışdıran və ksenofobiya təbliğ edən seçkiqabağı çarxı göstərilib. Bu, Gürcüstan Konstitusiyasına və qanunvericiliyinə ziddir və "Rustavi 2"-nin əsas redaksiya siyasəti milli ədavətin qızışdırılmasına və diskriminasiyanın hər cür formasına qarşı mübarizədir.

Teleşirkətin baş direktoru kimi iki gün ölkədə olmadığımdan kanalın efirini izləmək imkanım da olmayıb. Biz öz səhvimizi tam şəkildə anlayırıq və məsuliyyəti tamamilə öz üzərimizə götürürük. "Rustavi 2" telekompaniyası adından Türkiyədən, Gürcüstanda yaşayan etnik türklərdən və tamaşaçılarımızdan üzr istəyirik.

Yuxarıda adı çəkilən çarxa gəlincə, o, efirdən yığışdırılıb, bu barədə sabah (sentyabrın 25-də – red. qeydi) ) onu yerləşdirən subyekt – "Vətənpərvərlər alyansı" xəbərdar ediləcək.

Bir daha üzr istəyirik" – " Rustavi 2" telekompaniyasının baş direktoru Nika Qvaramiyanın bəyanatında deyilir.

# GÜRCÜSTAN DİN-NİN BAŞÇISI QARDABANİDƏ YENİ POLİS BİNASININ AÇILIŞINI EDİB



Gürcüstan DİN-nin rəhbəri Georgi Mqebrişvili Mühafizə polis departamentinin başçısı Quram Tomaradze ilə birlikdə Qardabanidə Mühafizə polisinin yeni idarə binasının açılışını edib.

Müasir avadanlıqlarla təchiz olunmuş birmərtəbəli yeni bina dəmir yolu obyektlərini mühafizə edən, habelə operativ qrupların nümayəndələri, daha doğrusu DİN-nin 250 əməkdaşı üçün nəzərdə tutulub.

Gürcüstan DİN 2016-2017-ci illərdə İmereti regionunun Tercola və Çiatura şəhərlərində, eləcə də Tbilisidə yeni binalar tikməyi planlaşdırır.

Mühafizə polis departamenti əlahiddə struktur vahidi kimi, Mixeil Saakaşvilinin hakimiyyətə gəlməsindən sonra Gürcüstan DİN-nin islahatı çərçivəsində yaradılmışdı.

Mühafizə polisi Gürcüstanın beynəlxalq hava limanlarının, ölkədə akkreditə olunmuş diplomatik missiyaların, dəmir yolu magistrallarının, habelə bir çox özəl obyektlərin qorunmasını təmin edir.

# QARDABANİ İES-İN İKİNCİ BLOKUNUN İNKİŞAFI HAQQINDA MÜQAVİLƏ İMZALANDI

Qardabani İstilik Elektrik Stansiyasının ikinci blokunun inkişafı haqqında müqavilə imzalanıb.

Gürcüstan Neft və Qaz Korporasiyası mətbuat xidmətinin məlumatına görə, sənədlərin imzalanması sentyabrın 28-də baş tutub. Birinci müqavilə Gürcüstan hökuməti, "Qardabani İstilik Stansiyası 2" MMC, "Gürcüstan Neft və Qaz Korporasiyası" SC və "Elektroenergetika sisteminin kommersiya operatoru" SC arasında imzalanıb və Qardabanidə 230 Mvt gücündə qarışıq kombinasiya dövrəli istilik elektrik stansiyasının tikinti layihəsinin həyata keçirilməsini nəzərdə tutur.

İkinci müqavilə "Qardabani İstilik Stansiyası 2" MMC və Çinin ChinaTianchenEngineeringCorporation şirkəti arasında bağlanıb. Bu müqavilə Qardabanidə 230 Mvt gücündə qarışıq kombinasiya dövrəli istilik elektrik stansiyasının layihələşdirilməsi,



alınması və tikintisini nəzərdə tutur.

Yüksək effektli və qənaətcil kombinasiya edilmiş istilik elektrik stansiyalarının tikintisi Gürcüstan hökumətinin prioritetlərindən biridir.

Qardabani İES-in tikintisi "Gürcüstan Neft və Qaz Korporasiyası" SC-nin daxili ehtiyatları və Çin banklarının vəsaiti hesabına maliyyələşdiriləcək.

# XEYİRXAHLIQLA DOLU FƏALİYYƏT ÖRNƏYİ

***İnsanoğlunun bu dünyadakı ən əsas vəzifələrindən biri də vətəninə, xalqına xidmət etməkdir. Xidmət elə bir işdir ki, onu gərək qarşılıqsız edəsən. Əgər bu işdə qarşılıq gözlədinsə, o zaman onun bir mənası qalmır.***



Hacı BƏKİROĞLU

İnsanın Allah rizası üçün etdiyi bütün yaxşılıqlara xidmət deyilir. Bir insanın çətinliyini aradan qaldırmaq, işini görmək, yetimi böyütmək, tələbəyə kömək etmək, iş tapmaq, tələbə yetişdirmək, borcluya dəstək olmaq, ictimaiyyət üçün məscid, məktəb inşa etdirmək xidmətdir.

Allah rizası üçün bir xidmətin içində olmaq qədər qazanclı bir iş yoxdur. Rəsulullah səllallahu əleyhi və səlləm əfəndimiz xidmət əhli üçün belə buyurmaqdadır:

"Kim bir mömінin dünya çətinliklərindən birini aradan qaldırsa, Allah da onun qiyamət günündəki çətinliklərindən birini aradan qaldırar. Kim mömin qardaşının ayıbını örtsə, Allah da onun dünya və axirətdəki ayıblarını örtər. Bir qul din qardaşının köməyində olduğu müddətdə, Allah da ona kömək edər." (Əbu Davud, Tirmizi)

"Bir cəmiyyət içində ən böyük savabı onlara xidmət edən götürər."

Xidmətin fəzilətini izah edən ən gözəl hədisi şərif budur:

Səhabələrdən Abdullah İbnu Abbas (Radıyallahu ənh) Hz. Peyğəmbərin (s.ə.s) məscidində etiqafa girmişdi. Yanına bir adam gəldi, salam verdi və oturdu. İbn Abbas (r.ə) adamın üzünə baxdı, onu bir az kədərli gördü:

-Ey filan! Səni kədərli və üzgün görürəm, bir çətinliyinmi var? – deyə soruşdu. Adam:

-Bəli, ey Allah Rəsulunun əmisinin oğlu. Filanın üzərimdə haqqı var, pul qarşılığında məni azadlığıma qovuşdurdu. Lakin bu qəbirdə yatan Peyğəmbər haqqı üçün söyləyirəm, boynuna götürdüyüm borcu ödəyəcək gücüm yoxdur – dedi. İbn Abbas (r.ə):

-Onunla sənin haqqında danışsam olarmı? – deyə soruşdu. Adam:

-İstəyirsən bir danış – dedi. İbn Abbas (r.ə) dərhal ayaqqabılarını geydi, məsciddən çıxdı. Adam:

-Etiqafda olduğunuzu unutdunuz hər halda! – deyə xatırlatdı. İbn Abbas (r.ə):

-Xeyr unutmadım. Lakin mən bu qəbirdə yatan Hz. Peyğəmbərdən (s.ə.s) eşitdim. O, aramızdan ayrılalı çox olmadı. Bu vaxt İbn Abbasın gözlərindən yaşlar axırdı. Sözünə davam etdi: Əfəndimiz (s.ə.s) belə buyurdu:

"Kim bir din qardaşının ehtiyacını aradan qaldırmaq üçün gedər və çətinliyini aradan qaldırarsa, bu etdiyi, onun üçün on illik etiqafdan daha xeyirlidir. Halbuki, kim Allahu Təalanın razılığı üçün bir gün etiqafa girsə, Allahu Təala onunla cəhənnəm atəşi arasında üç xəndək qoyar. Hər bir xəndəyin arası şərq ilə qərb arası qədər uzaqdır."

Bəli, əziz oxucular, bu gözəllikləri anlayan 6 nəfər gənc düz on il bundan əvvəl Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatını qurmağa qərar verdilər. Çünki onlar da bu həyatda çətinliklərlə üzləşmişdilər. Elə bu səbəbdən də insanların köməyinə yetişmək, onların səsinə səs vermək istəyirdilər. Onlar çıxdıqları bu yolda özlərinə dəstək olan insanlarla qarşılaşdılar.

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının ilk işinə 2006-cı ildən 3 ayda bir işıq üzü görən "Uğur" adlı jurnal nəşr etməklə başladı. Jurnalın nəşri daha sonralar 2 ayda bir olaraq davam etdirildi. Daha sonra gürcü dili, ingilis dili, kompüter kursları ilə fəaliyyətini davam etdirdi. 2011-ci ildə Tiflis şəhərində 25 nəfər tələbəni yataqxana ilə təmin edən GYMD bu gün 100 nəfərlik oğlan və 25 nəfərlik qız tələbə yataqxanası ilə tələbələrimizin xidmətindədir. Təşkilat son iki ildə Gürcüstanın müxtəlif universitetlərinin tibb fakultələrində təhsil alan tələbələri təcrübə üçün Türkiyəyə göndərir.

Təşkilat həmçinin hər il Ramazan və Qurban bayramlarında yüzlərlə kasıb, ehtiyac sahibi və kimsəsiz ailələri bayram hədiyyələri ilə sevindirir. Onu da qeyd edim ki, "Yeni Yol" qəzeti də məhz GYMD-nin məhsuludur.

Dəyərli dostlar, təşkilatın fəaliyyət sahələrini sadalamaqla birməz, biz sizi bu təşkilat haqqında qısa da olsa məlumatlandırdıq.

***Öz növbəmdə həm Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatını, həm də "Uğur" jurnalını və əməkdaşlarını öz adımdan və "Yeni Yol" qəzetinin əməkdaşları adından təbrik edirəm və gün o gün olsun 100 illiyinizi qeyd edəsiniz deyirəm.***

# ÖLKƏMİZDƏ UŞAQLARIN 4,2%-İ İŞLƏYİR

Gürcüstanda uşaqların 4,2%-i işləyir. Beynəlxalq Əmək Təşkilatının texniki və maliyyə dəstəyilə ölkə miqyasında Gürcüstan Milli Statistika Xidmətinin həyata keçirdiyi araşdırmaların nəticələri bunu deməyə əsas verir.

Asiya, Latın Amerikası, Karib dənizi hövzəsi və Afrika ölkələri ilə müqayisədə Gürcüstanda uşaq əməyi sahəsində göstərici ən aşağı səviyyədədir.

Araşdırma Gürcüstanın 5-17 yaşlı uşaqların yaşadığı 7700 daxili təsərrüfatını əhatə edir.

Araşdırma zamanı uşaqların yaşı, onların yerinə yetirdikləri iş, iş saatının müddəti, iş şəraiti də dəqiqləşdirilib.

Araşdırmaya görə, Gürcüstanda işləyən oğlanların sayı işləyən qızların sayından üç dəfə çoxdur.

Araşdırmanın təqdimatında iştirak edən Gürcüstanın əmək, səhiyyə və sosial müdafiə nazirinin müavini Valeri Kvarasxeliya uşaq əməyinin vəziyyəti, onun miqyası və səbəblərinə münasibət bildirib.

"Uzun illər, belə tədqiqatlar aparılmamışdan əvvəl ekspertlər müxtəlif fikirlər söyləyirdilər. Deyirdilər ki, işləyən uşaqlar 20-25%-dir, bu isə çox yüksək göstəricidir və ölkənin inkişafına mane olur. Biz bu istiqamətdə bir çox konvensiyalara qoşulmuşuq və araşdırma aparmaq lazım idi ki, görək gerçək mənzərə necədir. Artıq bilirik ki, bizim göstəricimiz yaxşıdır" – Kvarasxeliya bildirib.

Onun sözlərinə görə, tədqiqat təkcə bu uşaqları peşəkar planda inkişaf etdirməli olan ölkə hökuməti üçün yox, həm də ölkədə nə qədər uşağın işləmək məcburiyyətində qaldığına baxan sərmayəçilər üçün vacibdir.

# EHTİYACI OLAN AİLƏLƏRİN UŞAQLARINA QİDA ƏLAVƏSİ VERİLİR

Gürcüstan əmək, səhiyyə və sosial müdafiə nazirliyinin mətbuat xidmətinin məlumatına görə, ölkəmizdə sosial müdafiəsi olmayan ailələrin 6 aydan 23 ayadək yaşı olan uşaqlarına mineral və vitamin tərkibli qida əlavəsi paylanması prosesinə başlanılıb.

Gürcüstanda bu yaş kateqoriyasına 13 min uşaq daxildir. Bir uşağa onu bir il təmin edən 180 qutu qida ayrılacaq.

Beynəlxalq Səhiyyə Təşkilatı və BMT-nin Uşaq Fondu (YUNİSEF) tərəfindən tövsiyə olunan və verilən bu qidalar uşaqların qida çatışmazlığını aradan qaldırmağa kömək edəcək.

Gürcüstanda sosial cəhətdən müdafiə olunmayanlar statusu rifah meyarları üzrə qiymətləndirmənin nəticələrinə görə lazımi miqdarda bal toplayan vətəndaşlara verilir.

Qida əlavəsi reytinq balı yüz minə yaxın olan ailələrə ayrılacaq.

# GÜRCÜSTANDA İLK DƏFƏ SÜMÜK İLİYİ KÖÇÜRÜLMƏSİ HƏYATA KEÇİRİLƏCƏK

Gürcüstan baş naziri Georgi Kvirikaşvili və səhiyyə naziri David Sergeyenko yüksək texnoloji klinikanın və yüksək tibbi texnologiya mərkəzinin bazasında sümük iliyi köçürülməsi mərkəzinin açılışını ediblər.

Qeyd edək ki, yüksək texnoloji klinikada bir neçə struktur bölməsi – onkohematoloji mərkəz, qan bankı, yeni şüa terapiyası və diaqnostika departamentləri, pediatriya şöbəsi və uşaq reanimasiyası və uşaq onkohematologiyası xidməti fəaliyyət göstərəcək.

Hökumət başçısı və səhiyyə naziri tibb müəssisəsinin rəhbəri Qoça İnqorokva ilə birlikdə klinikaya baxış keçiriblər.

# NOYABRDA DÖVRİYYƏYƏ YENİLƏNMİŞ 100 LARİLİK ƏSKİNASLAR BURAXILACAQ




Gürcüstan Milli Bankının məlumatına görə, 1 noyabr 2016-cı il tarixindən etibarən bütün ölkə üzrə yenilənmiş 100 larilik əskinaslar dövriyyəyə buraxılacaq.

Yeni əskinaslar köhnə pullarla eyni vaxtda dövriyyədə olacaq.

Xatırladaq ki, Milli Bank cari ilin 1 fevral tarixində yeni tərtibada 20 və 50 larilik əskinasları dövriyyəyə buraxmışdı.

Təsvirlərin mövzusu əvvəlki kimi olsa da, şəkillər daha dəqiq və maraqlıdır.

Milli Bank ən geniş yayılmış 5 və 10 larilik əskinasları da dəyişdirmək fikrindədir. Onların yeniləşdirilməsi təxminən 2017-ci ilin əvvəlinə planlaşdırılır.

Bu, gürcü valyutasının 20 illik tarixi ərzində ilk əhəmiyyətli dəyişiklikdir.

20, 50 və 100 larilik əskinasların tərtibatı gürcü rəssamı Baça Malazoniyaya məxsusdur.

Yeniləşdirilmiş əskinasların eskizlərinin təkmilləşdirilməsi prosesində Giesecke & Devrient, Oberthur Fiduciaire və De La Rue kimi dünyanın aparıcı şirkətləri iştirak edib.

Bu ilin mart ayında Buxarestdə keçirilən HSP Europe(tm) konfransında 20, 50 və 100 larilik gürcü əskinasları "2016-cı ilin ən yaxşı regional banknot" nominasiyasında Avropa və MDB ölkələri arasında qalib gəlib.

Xatırladaq ki, milli valyuta ilk dəfə 1995-ci ilin 2 oktyabrında dövriyyəyə buraxılıb.

# GÜRCÜSTANDA 30 000 AİLƏ İNTERNET VAUÇERİ ALACAQ

"Ekosistemin milli innovasiya layihəsi" çərçivəsində 30 000 ailə 300 larilik internet vauçeri alacaq. Bu barədə layihənin meneceri Beso Abuladze məlumat verib.

Dünya Bankının 40 milyon avro məbləğində maliyyələdirdiyi layihəni İnnovasiya və Texnologiya Agentliyi yaz aylarından həyata keçirməyə başlayacaq. Layihə çərçivəsində 8 böyük və 50 kiçik innovasiya mərkəzinin yaradılması da nəzərdə tutulur.

Beso Abuladze bildirib ki, birdəfəlik vauçer istehlakçıya internetin insatalliyasiyası və bilgisayarların əldə olunması zamanı veriləcək.

"Vauçer internet installiyasiyasının ilkin məbləğini kompensasiya edir və bilgisayarın dəyərinin 20%-ə qədərini maliyyələşdirir" – Beso Abuladze qeyd edib.

Bundan əlavə, layihə çərçivəsində əhalinin bilgisayar vərdişlərini mənimsəməsi üçün xüsusi treninqlər də həyata keçiriləcək.

# MSK PARLAMENT SEÇKİLƏRİNDƏ SƏSLƏRİN SAYILMASININ TRANSLYASİYASINI TƏMİN EDƏCƏK



Sentyabrın 23-də MSK bəyan edib ki, keçirilməsi oktyabrın 8-ə planlaşdırılan Gürcüstanın parlament seçkilərində səslərin hesablanması prosesinə birbaşa efir vasitəsilə baxmaq mümkün olacaq.

"İstənilən arzu edən şəxs Facebook və Youtube-nin 360 dərəcəli xüsusi kameralarının köməyi ilə onlayn qaydada Mərkəzi Seçki Komissiyasında səslərin hesablanmasının necə getməsini müşahidə edəbiləcək" – Gürcüstan MSK-nın sədri Tamara Jvaniya jurnalistlərə bildirib.

Onun sözlərinə görə, belə qərar seçkilərin nəticələrinə etibarı maksimum yüksəltmək məqsədilə qəbul olunub.



# SEÇKİ HAVASINA KÖKLƏNMİŞ DÜNYA VƏ BİZ

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

***Gürcüstanda oktyabr ayının 8-nə təyin olunmuş parlament seçkilərinin siyasi əhəmiyyətini nəzərə alaraq anoloji mövzuda Rusiyada baş tutmuş və ABŞ-da baş tutacaq prezident seçkilərinin ölkəmiz üçün az əhəmiyyətli olmamasını vurğulamaq lazımdır.***

Rusiyada keçirilən parlament seçkilərinin nəticələri haqqında əvvəlcədən riyazi dəqiqliklə rəqəmlər söyləmək mümkün olmasa da, kimin və ya hansı siyasi partiyanın qalib olacağı barəsində proqnoz vermək asan idi. Beləliklə, sentyabrın 18-də Rusiya Federasiyası parlament seçkilərində "de-yure" Baş nazir Dmitri Medvedevin rəhbəri olduğu, lakin "de-fakto" prezident Vladimir Putinin nəzarəti altinda olan "Vahid Rusiya" partiyasının 450 deputat kreslosundan ibarət Dövlət Dumasında 343 yerə sahib olacağı təsdiq edildi. Bununla da adıçəkilən hakim partiya Rusiya parlamentində mütləq üstünlük əldə edərək, digər siyasi partiyaların mövqeyindən aslı olmayaraq ölkə konstitusiyası və qüvvədə olan digər qanunvericiliklərə təkbaşına dəyişiklik və əlavələr etmək yolunu açmış olur. Dövlət Dumasında təmsil olma hüququ əldə edən digər 3 siyasi partiya – kommunist, liberal-demokrat və ədalət partiyalarının fəaliyyəti isə "rəmzi" xarakter daşıyacaq. Prinsip etibarı ilə hər 3 siyasi partiya müxalifətyönümlü olmasına baxmayaraq, Putin tərəfindən total nəzarət altında olan Rusiyada yalnız sözdə müxalifət imici yaradırlar. Belə ki, Rusiya Federasiyası Kommunist Partiyasının sədri Gennadi Züqanovun Krımın işğal edilməsini dəstəkləməsi, Rusiya parlamentində bu regionun təmsil olunacağını alqışlaması faktiki olaraq kölgə müxalifəti siması yaradır.

Aydın məsələdir ki, keçirilmiş bu seçkilər şimal qonşumuzun sırf daxili işidir, lakin, ölkəmizlə ticari-iqdisadi bağları olan, dünya siyasətinin axarını hər an dəyişdirə biləcək, iki dövlətdən birinin məhz Rusiya olması, onun siyasi elitasının hansı idealogiyaya sahib qüvvələrdən təşkil olunması ölkəmiz üçün də böyük əhəmiyyət kəsb edir. Onu da vurğulamaq lazımdır ki, Rusiyanın ölkəmizə qarşı işğalçı siyasətində radikal dəyişikliklər edəcəyi və konstruktiv mövqe tutacağı ehtimalı sıfra bərabərdir.

Okeanın o tayında – ABŞ-da da "demokratlar" və "respublikaçılar"ın namizədləri arasında Ağ evə sahiblənmək uğrunda qızğın mübarizə gedir. Seçkiöncəsi rəylərə əsasən Hillari Klinton rəqibi Donald Trampı azacıq qabaqlasa da, ABŞ-ın 45-ci prezidentinin kim olacağı sualına noyabr ayında aydınlıq gələcək. Bir çox ekspertlər müsəlman və qaçqınlara qarşı da irticaçı çıxışları ilə seçilən Trampın qalib gələcəyi təqdirdə dünyada qlobal sülhün təhlükə altına girəcəyini vurğulayırlar. Ümumiyyətlə, Respublikaçılar partiyasının idealogiyasında təcavüzkar xarici siyasət, tibb və təhsilə ayrılan büdcə xərclərinin azaldılması, ölüm hökmünün saxlanılması, qlobal istiləşməyə qarşı mübarizədən boyunqaçırma kimi məqamlar özünü qabarıq şəkildə göstərməkdədir. Dünyanın enerji qaynaqları üzərində nəzarəti ələ keçirmək də respublikaçıların xarici siyasət doktrinasının tərkib hissəsidir. Demokratlar isə xarici siyasətdə üçüncü dünya ölkələrini "demokratiya transferi" bəhanəsi ilə cənginə keçirməklə fərqlənirlər.

***Yuxarıda vurğulandığı kimi, ölkəmizdə də mühüm parlament seçkiləri keçiriləcək. Hakimiyyət uğrunda çoxsaylı siyasi qüvvələr iştirak edir. Səsvermə hüququna malik hər bir vətəndaşmızı mövqeylərini azad surətdə ifadə etmək üçün seçkilərdə iştirak etməyə, legitim hakimiyyəti seçməyə dəvət edirik.***

## TÜRKİYƏ PREZİDENTİ BMT-NİN İSLAH OLUNMASININ VACİBLİYİ BARƏDƏ FİKİR BİLDİRİB

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BMT-də, xüsusilə təhlükəsizliyin təmin olunması üzrə qərarların qəbul olunması sahəsində islahat aparılmasının vacibliyi barədə bəyanat verib. Bu barədə o, fikrini BMT-nin Baş Assambleyasının sessiyasında bildirib.

Türkiyə prezidenti deyib: "BMT-nin islah olunması vacibdir. Bu planda baş katib Pan Gi Munun öncəki təşəbbüsləri gərəklidir. Hər şeydən qabaq təhlükəsizliyin qorunması sahəsində qərarların qəbul olunması sisteminin islahatını aparmaq lazımdır. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü belə qərarların qəbul edilməsini bacarmır".



Ərdoğan "Fərat qalxanı" əməliyyatının aparılmasında Suriyanın şimalında təhlükəsizlik zonasının yaradılması məqsədi güdüldüyünü də bəyan edib.

## BMT-NİN BAŞ KATİBİ PAN Gİ MUN BÖYÜK DÖVLƏTLƏRİ İTTİHAM ETDİ



BMT-nin Baş Assambleyasında çıxış edən qurumun baş katibi Pan Gi Mun diplomatik etiketdən kənara çıxaraq, dünya dövlətlərini tənqid atəşinə tutub.

BMT Baş Assambleyasının 71-ci sessiyasında çıxış edən baş katib dünyada mövcud olan ciddi problemlərin həll edilməməsində böyük dövlətləri ittiham edib.

"Mən dəfələrlə müşahidə etmişəm ki, geniş dəstək görən bir çox təşəbbüslərə bir və ya bir neçə dövlət tərəfindən veto qoyulub və bu təşəbbüsün həyata keçməsinin qarşısı alınıb. Bunu edən böyük dövlətlərdir.

Biz dəfələrlə BMT TŞ-nın həyati əhəmiyyət kəsb edən məhsuldar ideyaların həyata keçməsinə maneəçilik törətdiyinin şahidi olmuşuq.

Məgər bir və ya bir neçə dövlətin öz gücündən istifadə edərək, dünyanı girov saxlaması qanunidirmi? Bütün bunlar yolverilməzdir!" – deyə Pan Gi Mun BMT TŞ-nın üzvlərini tənqid atəşinə tutub.

## ZUCKERBERG XƏSTƏLİKLƏRİN KÖKÜNÜ KƏSMƏYƏ 3 MİLYARD DOLLAR VERİR

Facebook-un yaradıcı Mark Zuckerberg və xanımı Priscilla Chan gələn onillikdə tibbi araşdırmalara 3 milyard dollar verəcəklərini bildiriblər. Onlar deyiblər ki, məqsədləri əsrin sonunadək bütün xəstəliklərin "sağaldılması, profilaktikası və müalicəsidir".

Vəsaitlərin bölüşdürülməsi ilə 2015-ci ilin dekabrında yaradılmış Chan Zuckerberg Təşəbbüsü Fondu məşğul olacaq. Texnologiya liderləri diqqətlərini getdikcə daha çox sağlamlıq problemlərinə yönəldirlər.

Microsoft xərçəng problemini süni zəka alətlərindən istifadə etməklə "həll edəcəyini" vəd edib.

Britaniya dövlət səhiyyə sistemi ilə əməkdaşlıq edən Google şirkətinin DeepMind departamenti xəstəliklərin son dərəcə dəqiq diaqnostikası istiqamətində işlədiyini bildirib. İBM və MİT isə elan ediblər ki, ahıl və əlil pasiyentlərə qulluq üçün süni zəkaya əsaslanan sistem yaradacaqlar.

Lakin bunların arasında ən iddialı bəyanatı Chan Zuckerberg fondu verib.




Zuckerberg deyib ki, hazırda xəstəliklərin müalicəsinə onların qarşısının alınmasından 50 dəfə çox pul xərclənir. Onun fikrincə, əsas diqqət xəstəliyin heç başlamamasına yönəldilməlidir.

O, özünün investisiya sahəsində üç prinsipini elan edib: alimləri və mühəndisləri bir araya gətirmək, tədqiqatları inkişaf etdirmək üçün texnologiya və alətlər yaratmaq, bütün dünya boyunca elmin maliyyələşdirilməsi üçün hərəkata başlamaq.

Zuckerberg-in proqnozuna görə 2100-cü ilədək orta ömür 100 ildən çox olacaq.

## RUSİYA BEYNƏLXALQ SƏHİYYƏ REYTİNQİNDƏ SONUNCU YERİ TUTUB

Rusiya əhalisi beş milyondan artıq olan ölkələrin beynəlxalq səhiyyə reytinqində sonuncu yeri tutub. Xəbəri Bloomberg-ə istinadən İnterfaks yayıb.

Reytinqin tərtib olunması zamanı ekspertlər orta ömür uzunluğunu, səhiyyəyə xərclənən ÜDM-dən adambaşına düşən payı və s. nəzərə alıblar.

Rusiya siyahıda 55-ci yeri tutub və müvafiq olaraq 50-54-ci yerləri tutan Braziliya, Azərbaycan, Kolumbiya, İordaniya və ABŞ-dan geri qalıb. Reytinqə əsasən, Rusiyada orta ömür uzunluğu 70,37 ildir. ÜDM-in 7,07%-i tibbə xərclənir.

Honkonq, Sinqapur, İspaniya, Cənubi Koreya və Yaponiya reytinqin liderləri olublar.

Aprel ayında Rusiyanın baş naziri Dmitri Medvedev 2015-ci ilin məlumatlarına görə Rusiyada orta ömür uzunluğunun 71,4 il olduğunu bildirmişdi. O, son illər bu göstəricinin 4 il artdığını və bunun "tarixi maksimum" olduğunu vurğulamışdı.

## YAPONİYA YENİDƏN KURİL ADALARININ QAYTARILMASINI TƏLƏB EDİR

Yaponiyanın baş naziri Sindzo Abe bəyan edib ki, ölkə hökuməti Tokionun iddia etdiyi dörd Cənubi Kuril adasının qaytarılması üçün Rusiya ilə dialoqun inkişafına səylə çalışır. Məlumatı RİA Novosti agentliyi yayıb.

Onun sözlərinə görə, dekabrda Rusiya prezidenti Vladimir Putinlə nəzərdə tutulmuş görüşdə o, bu məsələləri "sakit şəraitdə" müzakirə etmək və sülh müqavilələrinin bağlanması haqqında danışıqlarda irəliləyişə nail olmaq niyyətindədir.

# AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ: REGİONAL ƏMƏKDAŞLIQ NÜMUNƏSİ KİMİ

| Ölkələr | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Gürcüstan | 406 750,5 | 542 202,8 | 454 891,4 | 461 382,1 | 624 810,2 | 700 660,2 | 650 466,3 | 623 437,9 | 433 947,2 |

**Tablo1. Azərbaycan-Gürcüstan xarici ticarət dövriyyəsi, min ABŞ dolları ilə**

**Azərbaycan-Gürcüstan münasibətləri sadəcə coğrafi yaxınlıqdan qaynaqlanan münasibətlər deyil, belə demək mümkündürsə "tale ortaqlığı"dır. Hər iki dövlət uzun illər boyunca eyni istiqamətlərdən hədələrə və işğala məruz qalıb, eyni imperiyaların tərkibində olub. Yaxın tarixdə eyni siyasi-ideoloji sistemin bir parçası olublar. Oxşar proseslərlə müstəqilliklərinə qovuşublar. Həm Gürcüstan, həm də Azərbaycan müstəqillik mübarizəsi apararkən, həm də ərazi bütövlüyü problemi yaşayıblar. Hər iki ölkənin ərazilərinin bir hissəsi qonşu dövlətin işğalı altındadır. Amma həm Gürcüstan, həm də Azərbaycan qarşılaşdığı problemlərə baxmayaraq, daha çox gərginliyə meyilli dövlət kimi deyil, əməkdaşlığa can atan, regional və beynəlxalq sülhə töhfə vermək istəyən dövlətlər kimi tanınmışdır.**

Yaxın tarixdəki Azərbaycan-Gürcüstan münasibətləri sadəcə bu iki ölkə üçün deyil, ümumilikdə region üçün əhəmiyyət daşıyır. Azərbaycan və Gürcüstanın iştirakı ilə reallaşdırılan layihələr sadəcə bu iki ölkənin maraqlarına deyil, qlobal enerji təhlükəsizliyinə də töhfələr verir. Gürcüstan və Azərbaycanın reallaşdırdığı nəqliyyat layihələri uzaq Asiya ilə Avropanın ən qərbini birləşdirən transmilli layihələr kimi qlobal əhəmiyyət daşıyır.

Münasibətlərin tarixinə qısaca nəzər salsaq görərik ki, hələ 1918-ci ildə Gürcüstan və Azərbaycan Çar Rusiyasından ayrıldıqdan sonra Zaqafqaziya Seymində bir yerdə olmuşdur. Zaqafqaziya Seyminin parçalanmasından sonrakı dövrdə də, digər ölkələrlə müqayisədə Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlər daha sağlam olmuşdur. Təsadüfi deyildir ki, bolşevik Rusiyası Azərbaycan və Gürcüstanı işğal etdikdən sonra Azərbaycan və gürcü diasporu işğalın aradan qaldırılması istiqamətində xarici ölkələrdə daha çox koordinasiyalı fəaliyyət göstərmişdir. Sovet dövründə iki qonşu ittifaq respublikası kimi Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlər yaxşı xarakterə malik olub.

1991-ci ildən sonrakı mərhələdə də Gürcüstan-Azərbaycan münasibətləri əsasən müsbət dinamikaya malik olub. Müstəqilliyin ilk illərində Gürcüstandakı vətəndaş müharibəsi sadəcə bu ölkənin özünə deyil, xarici əlaqələrinə, eləcə də Azərbaycanla münasibətlərinə də zərər vurub. İkitərəfli münasibətlər xüsisilə Azərbaycanda Heydər Əliyevin və Gürcüstanda isə Eduard Şevardnadzenin hakimiyyətə gəlməsindən sonra gücləndi.

İki dövlət arasında diplomatik münasibətlər 18 noyabr 1992-ci il tarixdə yaradılıb. Bundan sonra 1993-cü ilin 3 fevralında iki ölkə arasında münasibətlərin müxtəlif sahələrini tənzimləyən 18 müqavilə və saziş imzalanıb. Bunlar arasında Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə və Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında vizasız gediş-gəliş haqqında saziş də var idi.

Ümumiyyətlə isə 8 mart 1996-cı ildə Tbilisidə imzalanmış Azərbaycan Respublikası ilə Gürcüstan arasında Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə, eləcə də 4 mart 2004-cü il tarixli Azərbaycan Respublikası və Gürcüstanın Birgə Bəyannaməsi və 14 iyun 2004-cü il tarixli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstanın Prezidenti Mixeil Saakaşvilinin Birgə rəsmi məlumatı ikitərəfli münasibətlərin müqavilə-hüquq bazasının əsasını və Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığını təmin edən mühüm sənədlərdir. Azərbaycan Respublikası ilə Gürcüstan arasında 104 sənəd imzalanıb.

1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyi, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyi açılıb. Daha sonra Azərbaycanın Batumidə Başkonsulluğu da açılıb.

Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiya formalaşdırılıb. Komissiyanın iclasları 11 iyun 2004-cü il tarixdə Tbilisidə, 18 iyul 2005-ci il tarixdə Gəncədə, 16 avqust 2006-cı il tarixdə Batumidə, 27 sentyabr 2007-ci il tarixdə Bakıda, 4 dekabr 2008-ci il tarixdə Tbilisidə, 23 iyul 2010-cu il tarixdə Bakıda, 20 dekabr 2011-ci il tarixdə Tbilisidə keçirilib.

Azərbaycan və Gürcüstan beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq edir. 2008-ci ilin mart ayının 14-də BMT Baş Məclisində "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətə dair" qətnamənin qəbulu ilə bağlı keçirilmiş səsvermədə Gürcüstan qətnamənin lehinə səs verib. 2009-cu ilin sentyabr ayının 9-da BMT Baş Assambleyasında Gürcüstanın təşəbbüsü ilə irəli sürülmüş "Gürcüstanın Abxaziya və Gürcüstanın Cənubi Osetiyanın Sxinvali rayonundan olan məcburi köçkün və qaçqınların vəziyyəti" adlı qətnaməyə dair səsvermə zamanı isə Azərbaycan Gürcüstanı dəstəkləyib. 7 sentyabr 2010-cu il tarixdə BMT Baş Assambleyasında "Abxaziya (Gürcüstan) və Cənubi Osetiyada (Gürcüstan) məcburi köçkün və qaçqınların vəziyyəti barədə" qətnamənin qəbulu ilə bağlı səsvermə zamanı da Azərbaycan Gürcüstanı tam dəstəkləyib.

İkitərəfli münasibətlərdə Azərbaycan Prezidenti Heydər Əliyevin 8 mart 1996-cı il tarixdə Tbilisiyə səfəri və Gürcüstan Prezidenti Eduard Şevardnadzenin 18 fevral 1997-ci il tarixdə Bakıya rəsmi səfəri əhəmiyyətli yer tutmuşdur.

İki ölkə Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatında, eləcə də GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq edirlər. Məhz bu çərçivədə 2002-ci ilin aprelində imzalanan "Trabzon razılaşması"nda münasibətlərin strateji xarakteri xüsusi vurğulanmışdır.

Gürcüstan və Azərbaycanın iştirakı ilə regional və beynəlxalq əhəmiyyətli enerji və transport layihələri həyata keçirilir. Bunlar Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi- Qars dəmir yolu, TAP, TANAP layihələridir.

Yuxarıdakı talboda 2012-ci ilə qədər yüksəliş, 2013-cü ildən etibarən isə müəyyən düşüş müşahidə edilir. Bunun əsas səbəblərindən biri qlobal iqtisadiyyatda yaşanan böhranlar və onun regonal təsirləri, eləcə də neft qiymətlərindəki azalmanın Azərbaycan iqtisadiyyatına təsiridir.

Azərbaycanda gürcü kapitalı ilə işləyən 50-yə yaxın müəssisə fəaliyyət göstərir. Gürcüstanın ən fəal ticarət əlaqəsi olan ölkələr sırasında Azərbaycan öncül yerlərdən birini tutur. Son illərdə Azərbaycan Gürcüstana böyük miqdarda sərmayə yatırır və hal-hazırda Azərbaycan Gürcüstanda ən böyük kapital qoyuluşunu həyata keçirən ölkədir. Eyni zamanda Azərbaycan Gürcüstanda sosial layihələrə də dəstək verir. Etnik separatizmin həssas olduğu bir regionda yaşamağımıza baxmayaraq, Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər iki ölkə arasında sağlam körpü rolunu oynayırlar.

Gürcüstanda 2003-cü ildə hakimiyyət dəyişikliyindən sonra bu ölkənin bir çox istiqamətlərdəki əlaqələrində dəyişikliklər olsa da, Gürcüstanla Azərbaycan arasındakı münasibətlər zəifləməyib, əksinə, münasibətlərin daha da inkişafı üçün yeni addımlar atılıb. Belə ki, 2004-cü il martın 4-5-də Gürcüstan prezidenti Mixeil Saakaşvili Bakıda rəsmi səfərdə olub. Səfər zamanı "Azərbaycan Respublikası və Gürcüstan arasında birgə bəyannamə", "Təhsil sahəsində əməkdaşlıq haqqında saziş", "Azərbaycan Respublikası hökuməti ilə Gürcüstan hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında saziş" imzalanıb. Bunun ardınca, 2004-cü ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfəri zamanı ikitərəfli münasibətlər və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub, həmçinin sərhəd-buraxılış məntəqələrinin işinin təkmilləşdirilməsi, nəqliyyat daşımaları tarifləri nəzərdən keçirilib.

Sonrakı illərdə də tərəflər bir-birlərinə dəstəklərini davam etdiriblər. Gürcüstandan Azərbaycana yüksək səviyyəli son rəsmi səfər Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvilinin 31 avqust 2016-cı il tarixli səfəri olub. Səfər zamanı Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili Azərbaycan prezidenti İlham Əliyev və digər Azərbaycan rəsmiləri ilə görüşlər keçirib.

**Göründüyü kimi Gürcüstan-Azərbaycan münasibətləri olduqca çoxşaxəli, strateji xarakterə və müsbət dinamikaya malikdir. Ölkələr bir-biri üçün həyati əhəmiyyət daşıyan mövzularda (xüsusilə ərazi bütövlüyü məsələsində) bir-birini tam dəstəkləyirlər. Gürcüstanla Azərbaycan arasındakı əməkdaşlıqdan sadəcə bu iki ölkə deyil, uzaq şərqdən qərbə qədər (şərti olaraq "Pekindən Londona qədər") çox sayda ölkə faydalanır. Azərbaycan və Gürcüstan münasibətlərdəki hazırkı dinamikanı qoruyaraq həm regional sülhə və əməkdaşlığa töhfə verəcək, həm də yeni strateji əhəmiyyətli iqtisadi layihələr reallaşdıracaqdır.**

Araz ASLANLI,
Əbilxan İSAYEV

## CAVAXADZE: AZƏRBAYCAN VƏ GÜRCÜSTAN STRATEJİ TƏRƏFDAŞLARDIR

Azərbaycan və Gürcüstan tərəfdaş ölkələrdir. Bu, əməkdaşlığın inkişafı, bütün sahələrdə, eləcə də seçki komissiyaları arasında əlaqələrin möhkəmləndirilməsi üçün imkanlar yaradır. Bu barədə Gürcüstan MSK-nın üzvü Dmitri Cavaxadze AzərTAc-a müsahibəsində bildirib.

D. Cavaxadze bu gün Gürcüstan və Azərbaycan mərkəzi seçki komissiyaları arasında çox yaxşı münasibətlərin olduğunu vurğulayıb. O, qeyd edib: "Biz çox effektli əməkdaşlıq edirik. Biz əksər beynəlxalq tədbirlərdə eyni mövqedən çıxış edirik ".

Onun sözlərinə görə, seçki sisteminin təkmilləşdirilməsi, seçkilərin gedişində mütərəqqi metodların tətbiq olunması, təcrübə mübadiləsi aparılması və digər məsələlər prioritet təşkil edir.

## AZƏRBAYCAN TBNM VASİTƏSİLƏ YÜK DAŞINMALARININ ARTIRILMASINDA MARAQLIDIR

Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov Nyu-Yorkda dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkə nazirlərinin 15-ci iclasında Azərbaycanın Transxəzər Beynəlxalq Nəqliyyat Marşurutu (TBNM) vasitəsilə yük daşımalarının artırılmasında maraqlı olduğunu bildirib.

E. Məmmədyarov deyib: "Azərbaycan nəqliyyatın sabitliyinin təmin edilməsi üçün transregional əlaqələrin gücləndirilməsində maraqlıdır. 2017-ci ildə region üçün strateji əhəmiyyətli, sərnişin və konteyner daşınmasında rəqabəti təmin edən Bakı-Tbilisi-Qars dəmir yol xətti işə düşəcək. Bundan başqa, Azərbaycan TBNM üzrə Qazaxıstan və Gürcüstan vasitəsilə yük daşımalarının həcminin artırılmasında da maraqlıdır".

O, bu məqsədlə bu ilin aprelində Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumunun yaradıldığını bildirib.

TBNM Çindən başlayıb Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyədən keçərək Avropaya uzanan marşurutdur.



# FACEBOOKDAN GÖRÜNƏN DÜNYA

Afayət AFİQ

**Bu bizim Markın qeyri-adi layihəsini insanlığın önünə təqdim etməsindən sonra, dünyamızın informasiya dənizində boğulmaq təhlükəsi ilə qarşı-qarşıya qaldığı məqamlar da çox olub. Bizim Markın sizin bəziləriniz üçün naməlum şəxs olduğunu yəqin etdiyim üçün də ikicə cümlə vasitəsi ilə sizi onunla tanış etmək istəyirəm. Bu şəxs dünyaya gəlmiş nadir istedadlardan biridir. Ən zəngin və məhşur insanlar sırasındadır. Bilənlər bilir, Mark facebook dünyasının qurucusudur.**

Hamımız onu evimizdən biri kimi görürük. Hətta ilk "sabahın xeyir", son "gecən xeyrə" ifadələrini də ondan alırıq. Hər kəs üçün qapısı açıq olan bu dünyada hər kəs bir-biri üçün əlçatandır. Filankəsin qızının elçiliyində gələn şokoladın kağızının rəngindən tutmuş, beşmənkəsin oğlunun diplomunun hansı iş yerlərində qəbul edilməsinə qədər bütün məlumatlar facebookda yayılır. Bu açıq qapı isə hər kəsə olduqca geniş imkanlar verir. Əlinə qılıncını, qələmini alan hər kəs internetin, ələlxüsus da facebookun nemətlərindən doyunca dadmağa başlayır. Məhşurluq axtaran, belə söz demək istəyən burada dil açır. Süfrədə ağsaqqaldan söz ala bilməyən, ağbirçəyin qınağından cana-boğaza yığılanlar da bu aləmdə at oynatmaqla məşğuldurlar. Elə bununla da olanlar olur, elə bil ki, bir qazan yeməyin içinə bir sürü əcaib həşarat tökülür.

Hər şeyin çox adi səbəblərdən başlaması isə hamımıza yaxşı bəllidir. Təsadüfi uğurların qəhrəmanları ilə sizin də qarşılaşmışlığınız var, buna heç bir şəkk-şübhəmiz yoxdur. Ona da şübhə etmirik ki, təsadüfi uğurun yetirmələri hər yerdə başımızın ən acı bəlasıdır. Haqqında danışmaq istədiyimiz isə, məlumatların, yazıların sürətlə yayılması, insanların bu məqamdan faydalanması və hər kəsin özünə dərd yaratması idi. Bu gün ölkəmizdəki reallıq, sosial vəziyyət istənilən sahədə fəaliyyət göstərən insanları dəyişməyə, özündən itməyə, başqalaşmağa məcbur edir. Məhz bu zəhrimar səbəbdən də, heç kim olması gərəkdiyi insan deyil. Yazıq ki, uzun uzadı problemlər, rəngarəng çətinliklər həkimin, müəllimin, jurnalistin, qəssabın, dərzinin adlarının dırnaq arasından çıxmasına böyük bir əngəldir. Sözügedən səbəblərin ən başında isə əlbəttə ki, maddi problemlər dayanır. Daha doğrusunu qeyd etməli olsaq, maddiyyatdan qaynaqlanan problemlər. Buna görə də, hamı bir-birindən narazıdır. İnsafla desək, əslində hər kəs özü özündən də narazı olmalıdır. Bu uğur qazanmaq üçün ilk şərtdir. Təsadüfi olmayan uğurlar bu kimi pillələrdən ibarət olur. İnkişaf etmiş ölkələrdə də bu adi haldır. Ona görə də inkişaf çox sadə və təbii şəkildə baş verir. Elə ona görə də kimsə bir-birinin uğuruna heyrətlənmir, sadəcə sevinir. Bizim Mark insanların fikirlərini bölüşmələri və hər yerə səslərinin çatması üçün şərait yaradıb. Məhz bu şəraitdən istifadə edən insanlar isə həyatdakı bütün xüsusiyyətlərini yəni ağlınıza gələ biləcək bütün düşüncələrini virtual aləmə köçürürlər. Facebookda sevirlər... Facebookda paxıllıq edirlər... Facebookda üzülürlər... Facebookta acıq verirlər... Unutduqları, unutduğumuz bir şey isə ondan ibarətdir ki, virtual aləm real həyatın paylaşılması üçün yaradılıb, bizlər isə əksinə virtual həyatımızı reallığın belinə sırımağa çalışırıq. Sözümün canı, buna görə də uğuru ya təsadüfən əldə edirik, ya da heç əldə edə bilmirik. Facebookdan görünən dünyanın özü də görün bizə nələr deyir. Adlarımız dırnaq arasından çıxa bilmir, çünki həvəsləndirəcək, işini sevgi ilə görmənə səbəb olacaq səbəblər demək olar ki, yox səviyyəsindədir. İnkişaf etmiş ölkələrin insanları köşə yazısı ilə villa tikir, bizim yerlərdə yazanlar villanın kərpicini də ala bilmir... O yerlərdə müəllim gələcəyi, həkim ölüm sözünü lüğətlərdən sildirmək istəyir. Bu yerlərdə müəllim, həkim əlində imkan olsa ayın ortadakı 25 gününü sıradan çıxardar ki, ay elə 5 ya da 6 gündən ibarət olsun... O yerlərdə bir-birilərinə kitab hədiyyə alırlar, biz kitabı yeri gələndə nə edirik, özünüz yaxşı bilirsiniz...

**Bilirəm, bizim o yerlər olmamıza hələ çox var... Bilirəm. Bunları da Mark və Mark kimi insanların işlərindən eşidirik, görürük. Qonşudan bişəndən bizə də düşəcək deyə ümid etmək istəmirik, biz də bişirək deyirik... Bir yerdən başlamaq, dünyanı dəyişməyə öz kiçik addımınla başlamaq imkansız deyil, nəticəsi isə nəhəng ola bilər, çox nəhəng... Bizim Mark elə deyir... Mən ona inanıram.**

# BİZ ASFALT YOLUN SEVİNCİNİ NECƏ YAŞADIQ?

**Dedik biz də bəxtəvərlərdən olduq, dedik biz də ağ günə çıxdıq. Bir-birini təbrik edən kim, bir-birinə gözaydınlığı verən kim, bir-birinə muştuluqçu göndərən kim. Əlacımız olsaydı çırtıq çalıb oynayardıq da. Əlac deyəndə, bu utancaqlıq əlimizi-qolumuzu bağladı və biz də utandığımızdan oynaya bilmədik. Belə bir işdən yana əl götürüb oynamaq ləzzət edərdi, hələ bir dəstə-dəstə "Yallı" getmək də bəd olmazdı. Bəs nə bilmişdiniz? Kəndin tarixində önəmli hadisə baş verdiyindən oynamağa dəyərdi və lap kəlləmayallaq aşmaq da yerinə düşərdi. Nədən ki, kəndin ikinci dərəcəli yolları da asfaltlandı, hökumətimiz bir ətək xərc çəkib ayağımızın altına asfalt döşədi, indi də sevinməyib, şadlığından şitlik etməyib nə vaxt edəsiyik ki? Şəhərlə kənd arasında fərqin gerçəkdən aradan qaldırılmasında bundan gözəl nə ola bilər. Sovet biçarə şəhərlə kənd arasında fərqin ləğv edilməsini sayaqlaya-sayaqlaya canını bizə tapşırdı, dediyini yerinə yetirmədən alamuraz getdi. İndi suyun var, işığın var, qazın da öz yerində, zibilin daşınır, asfaltın da çəkilib, şəhərlidən sənin nə fərqin qalıb, daha insana nə lazımdır? Gəz, özün üçün kef elə.**



Elə bu düşüncələr içərisində gözünə alamadar yuxu getdiyi, yuxunda da şumal asfaltda şütüyən aləlvan maşınlar gördüyün bir məqamda tükürpədici bir səs səni yerindən dik atılmağa vadar edir. Və sən də alt paltarda qaçırsan həyətə. Nə paltar geyinməyə, nə də paltar geyinmədiyindən utanmağa hələ macalın olmadığını da vurğulayım ki, sonra səni ədəbsizlikdə, əndazəni aşmaqda suçlamasınlar. Orasını da deyim ki, küçəyə qaçan tək sən deyilsən, bütün qonum-qonşu sən günlüdür, hamı da alayoluq özünü atıb təzə asfaltın tamaşasına. Hamı bir-birinə dəyib, baş verən qəzanın şokunu yaşayır. Filankəsin oğlu təzə yolun kefini çıxarırmış – burada deyiblər, görməmişin oğlu oldu, çəkib nəyini qopardı – maşını çırpıb Filanın darvazasına. Hələ bu harasıdır. Bu gecə jurnala baxdıq, sən demə filmin davamı önümüzdəki günlərdə olacaqmış. Üstəgəl, həm də bu film acı bağırsaq kimi uzandıqca uzanacaqmış. Bir gün keçir, iki gün keçir bir başqasının oğlu da bir yazığı maşının burnu ilə vurub şil-şikəst edir. Arası bir şey çəkmir biri də fağırın birini o dünyaya yola salır. Nə başınızı ağrıdım tragi-komik bir durum yaranıb ki, gəl görəsən. Küçəmiz mövcudluğu tarixində belə hərəkətlilik, belə qaynaşma, belə vur-çatlasın görməyib. Gələnin, gedənin ayağının altında itmişik. Polis patrul xidmətinin maşınlarının biri gedir, biri gəlir, küçəmizi su yoluna döndəriblər. Deyirsən ki, toy-bayramdır. Nə gecəmiz var, nə gündüzümüz.

Küçələrinə asfalt çəkilməyən bir tanışım bütün olanlardan xəbərsiz kimi, sızıldayıb yollarının asfaltsızlığından xəstəlik tapdıqlarını söyləyir. Mən ona doğru-dürüst bir cavab verə biməyəcəyimi və ya verdiyim cavabın onu qane etməyəcəyini düşünərək, onun sualını başa düşmürmüş kimi bir tövr alıram, ona köhnə kişilərdən bir lətifə danışmağın daha doğru yol olduğunu yəqinləşdirib eşitdiyim bu əhvalatı danışıram: "Deyir, bir kişi bazara gedir və bir ata müştəri çıxır. At sahibindən atın xasiyyətini soruşur. At sahibi də deyir: a kişi, and bu, müshaf bu, öz çırağımı söndürüb səninkini yandırıram. Bunu eşidən alıcı sevincək pulunu sayıb atı alır və evə gətirib tövlədə bağlayır. Ev əhli də sevincindən papağını göyə atır. Atın yeni sahibi gecənin bir aləmi tövlədən gələn səs-küyə oyanır və uşaqların anası ilə birgə qaçırlar tövləyə. Çırağı yandırıb baxırlar ki, at yerə uzanıb, ağzı köpüklənir. Uzun sözün kəsəsi, səhərəcən atın qulluğunda durub, onu ayağa qaldırırlar. Atın bu hərəkəti növbəti gecələrdə də təkrarlanır. Və yalnız üçüncü gecə atın yeni sahibi atı satanın "öz çırağımı söndürüb, səninkini yandırıram" sözlərinin mənasını anlayır". İndi rəhmətliyin oğlu, əlacım olsa öz küçəmizin asfaltını söküb, sizin küçəyə döşəyərdim, öz çırağımızı söndürüb, sizinkini yandırardım. Elə bilirsən biz asfaltlı olub bəxtəvərlik tapmışıq, bircə siz qalmısınız?

**... ölkəmizdə istər magestiral, istər də ikinci dərəcəli neçə-neçə yeni yollar çəkilir. Ağlı yerində olan hər kəs buna yalnız sevinməlidir. Amma görməmişlikdənmi, qanmamaqdanmı insanların bu sevinci sonadək yaşamasına imkan verməyən sürət həvəskarları özlərinə, ətrafdakılara, ümumilikdə cəmiyyətə müşkülər yaratmaqdan yorulmurlar ki, yorulmurlar. Onların bu şıltaqlıqlarının qarşısını almaq üçün yeni yollarda əlavə xərc çəkib süni manelər (tramplinlər) düzəltmək isə başqalarının vaxtını almaq bir yana, əsəblərini də xarab edir. Yorğun-arğın işdən qayıdan birinin 10-15 kilometrlik bir yolda 30-40 maneəni keçməsi onun əsəblərinin yerindən oynamasına bəs də edər, hələ artıq da qalar.**

**A. M. ALISOY**

# PANKİSİ DƏRƏSİNDƏ MƏKTƏBLİLƏRƏ ÇEÇEN DİLİ ÖYRƏDİLƏCƏK

Pankisi məktəblərində çeçen dilini öyrənməyə başlayıblar. Məlumatı yerli WAY radiosu yayıb.

Müxtəlif hesablamalara görə, Pankisidə 7-10 min əhali yaşayır. XX əsrin sonu və XXI əsrin əvvəllərində iki çeçen müharibəsi dövründə Pankisinin əhalisi Çeçenistandan gələn qaçqınlar hesabına artmışdı.

Arzulayanlar çeçen dilini beşinci və altıncı siniflərdən öyrənə biləcəklər. Pankisi dərəsindəki Duisi ictimai məktəbinin direktoru Lili Sviaurinin sözlərinə görə, əgər lazım olan dərsliklər gələrsə, çeçen dilini yuxarı siniflərdə də öyrənəcəklər. Çeçen dili pedaqoqlarının ixtisaslarını artırmaq üçün onların yenidən hazırlanması da nəzərdə tutulur.

Sviauri deyib: "Duisi kəndində təhsillərini Çeçenistanda almış cəmi iki pedaqoq var. Digər məktəblərdə isə bir pedaqoq olacaq".

Pankisi sakinləri çeçen dilinin öyrənilməsini keçən ildən tələb edirdilər.

Xatırladaq ki, çeçen dili YUNESKO tərəfindən yox olma təhlükəsi altında olan dillərdən biri kimi tanınıb.

Gürcüstan təhsil və elm nazirliyi gələn ildən məktəbləri gürcü-çeçen dərslikləri ilə təmin edəcək.

## MƏKTƏB MÜƏLLİMLƏRİNİN ƏMƏK HAQQI 2017-Cİ İLDƏN ARTACAQ



Müəllimlərin orta əmək haqqı demək olar ki, iki dəfə artacaq. Gürcüstanda müəllimlərin orta əmək haqqı 2017-ci ildən 800 lariyədək artacaq. Bu barədə təhsil və elm naziri Aleksandr Cecelava məlumat verib.

Aparıcı məktəb müəllimlərinin orta əmək haqqı 1000-1200 lariyədək artacaq. "Son illər ərzində pedaqoqların əmək haqqı bir neçə dəfə artıb. Təxminən 250 larilik baza əmək haqqı 500 lariyədək yüksəlib. Gələn ilin əvvəlində, yanvar-fevralda o, artıq yeni səviyyəyə qalxacaq… Biz onunla fəxr edirik ki, bizim hökumətimiz şəraitində pedaqoqların əmək haqqı gələn ildən orta hesabla 800 lari olacaq" – Cecelava bəyan edib.

Pedaqoqların əmək haqlarının miqdarı onların ictimai fəallığından və peşəkar inkişafından asılıdır.

Hal-hazırda müəllimlərin peşəkar inkişaf sxemi məktəb pedaqoqlarını dörd kateqoriyaya bölür: pedaqoq praktiklər, baş pedaqoqlar, aparıcı müəllimlər , mentor müəllimlər.

## TƏHSİL NAZİRİ ALTERNATİV ELEKTRON DƏRSLİKLƏRİN QƏBUL EDİLMƏSİNƏ TƏRƏFDARDIR

Gürcüstanın elm və təhsil naziri Aleksandr Cecelava jurnalistlərlə görüşü zamanı tədris sistemində elektron dərsliklərin əlavə edilməsi haqqında danışıb. Nazir media nümayəndələrinə ümumi təhsil sistemində həyata keçirilən və planlaşdırılan yeniliklər haqqında məlumat verib. Cecelava mərhələlərlə elektron dərsliklərin tətbiq edilməsinin maraqlı olacağını vurğulayıb.

"Biz nəşriyyatları başqa ölkələrdə elektron dərslikləri inkişaf etdirən bir neçə şirkətlə görüşdürdük. Bunu alternativ kimi təklif etməyi düşünürük. Məsələn, valideynə seçim təklif edən, bu kağız, bu da elektron versiyadır deyən sistem mənim çox xoşuma gələrdi. Uşağın bunu necə istifadə edəcəyinə sən qərar ver. Ola bilər ki, planşeti məktəbə aparsın, evdə isə kağızla işləsin və ya əksinə. Düşünürəm ki, elektron dərslik elə yaxşı şeydir ki, o daxil olacaq" – deyə Aleksandr Cecelava qeyd edib.

Nazir ilk iki-üç il ərzində 500 000 şagirddən 50 000-inin elektron dərslikləri seçəcəyini, daha sonra isə bunun yavaş-yavaş yayılacağını güman edir.

"Hələ qiymətin nə olacağını bilmirik. Məsələn, Ukraynada əgər kağız kitabın varsa, bir dollara bir illik kitabın elektron versiyasını da ala bilirsən. Dərsliyin müəllifi nəyisə dəyişdirdiyi zaman sən bunu telefonunda, planşetində, kompüterində görəcəksən. Elektron dərslik istəməyin sənin üçün əlavə xərc olacaq. Düşünürəm ki, bu bazarı da açmalıyıq" – təhsil naziri əlavə edib.

Aleksandr Cecelava elektron dərsliklərin "ilk qaranquşları"nın 2017-ci ildə görünəcəyinə ümid etdiyini bildirib.

## GÜRCÜSTANDA UŞAQLARIN 38%-İ BAĞÇAYA GETMİR



YUNİSEF-in 2015-ci ildə həyata keçirdiyi Gürcüstan əhalisinin rifahı tədqiqatının nəticələrinə görə, 3 yaşdan 5 yaşadək uşaqların 38%-i uşaq bağçalarına getmirlər. Bu barədə YUNİSEF-in kommunikasiya proqramlarının rəhbəri Maya Kurtsikidze məlumat verib.

Problemin həlli üçün məktəbəqədər təhsil müəssisələrində əlavə yerlərin yaradılması vacibdir, lakin bu, artıq mövcud olan qruplara uşaqların əlavə edilməsi hesabına baş verməməlidir. Belə olduqda bu, təhsil prosesinə mənfi təsir göstərə bilər.

"Məktəbəqədər təhsilin keyfiyyəti bir sıra faktorlarla – təhlükəsiz fiziki və sosial mühit, uşaqların yaşlarına və inkişaflarına uyğun proqram və resurslar, yüksək ixtisaslı pedaqoqlar, qruplarda uşaqların az olması ilə şərtlənir" – Kurtsikidze bildirib.

YUNİSEF-in tövsiyəsinə əsasən, yerli özünüidarəetmə orqanları müxtəlif strategiyalardan istifadə etməlidirlər. Yeni uşaq bağçaları tikməli, dövlət uşaq bağçalarına düşə bilməyən uşaqların özəl bağçalara gedə bilmələri üçün maliyyə vauçerləri verməlidirlər.

Məktəbəqədər təhsil müəssisələrində vəziyyəti öyrənmək məqsədilə YUNİSEF Gürcüstan Milli Statistika xidmətilə birlikdə 2013-cü ildə də tədqiqatlar aparmışdı. Tədqiqatın nəticələri göstərmişdi ki, ölkədəki məktəbəqədər müəssisələrin əksəriyyəti uşaqları keyfiyyətli təhsil və xidmətlə təmin edə bilmir. Tədqiqat Gürcüstanda mövcud olan bütün dövlət uşaq bağçalarını əhatə edirdi.

Bu istiqamətdə müəyyən müsbət irəliləyişlər də var. 1 aprel 2017-ci il tarixindən Gürcüstanda hökumətin təsdiq etdiyi məcburi milli standartlar, xüsusilə də təhsil, qidalanma, gigiyena və infrastruktura aid standartlar fəaliyyət göstərəcək. Ölkənin bütün uşaq bağçaları bu standartlara əməl etməyə borcludur.

## 2015-Cİ İLDƏ 5-17 YAŞLI 11 200 UŞAQ TƏHSİLİNİ YARIMÇIQ QOYUB

2015-ci ildə Gürcüstanda yaşayan 5-17 yaşlı 11200 uşaq məktəbi atıb. Onların bu yaşda olan uşaqların 1,9%-ini təşkil edirlər. məlumatı uşaq əməyini araşdıran Gürcüstan Milli Statistika Xidməti yayıb.

Bu uşaqların 69,5%-i işlə təmin edilməyib.

Araşdırmaya əsasən 5-17 yaşda uşaqların məktəbə getməyi dayandırmalarınının 14 səbəbi arasında ikisi xüsusilə seçilir. Uşaqların 26,8%-i məcburi 9 illik təhsili başa vurmağı özlərinin məktəbə getməyi dayandırmalarının səbəbi hesab edib, 21,5%-i isə təhsilə marağının olmamasını və ya təhsildə zəif olmasını səbəb göstərib.

## İSMAYIL ŞIXLININ TABİ-İMTAHAN TERMOSU (termoterapiya)



İBRAHİMXƏLİL
*tamiyev57@mail.ru*

**" – Bilirsən, nə var? Bizi Bakıdan sürəcəklər.**

– Niyə?

– Dissertasiya yazdığımıza görə".

Bu parça unudulmaz İsmayıl Şıxlının 1988-ci ildə qələmə aldığı "Ayrılan yollar və..." adlı xatirəsindən götürülüb. Belə məlum olur ki, vaxtilə "başı bəlalı" dissertasiya yazmağa görə də sürgün təhlükəsi olurmuş...

Hər nə isə... Mirzə Qələm demiş, getsin o günlər, bir də gəlməsin...

İndi insan – insan münasibətləri, ünsiyyət o qədər yeni keyfiyyət göstəricisi qazanıb ki, hətta hərbi münaqişələri belə, "dondurub" buz dolabına qoymaqla sülh də yarada bilirlər. Doğrudur, bu sülh – Hələbdə və Bağdadda olduğutək – kövrək də alınır; yəni hərbi əməliyyatlar yenidən alovlana bilir.

Amma mənə də, Mirzə Qələmə də münasibətləri, ünsiyyəti soyutmaq yox, isti saxlamaq daha çox əl verir.

Başqa sözlə – orta məktəbdən də öyrəndiyimiz kimi – ünsiyyətin əsas predmeti başqa insandır; yəni Mirzə Qələm olmasa, mən kiminlə ünsiyyət quraram? Bu az-az arazbarı minvalla, Mirzə Mikrob olmasa, Mirzə Virus kiminlə ünsiyyət yaradar? Ya da – yenə də misilləmə misal üçün – Rusiyanın Xarici İşlər Naziri cənab Sergey Lavrov olmasa, Suriyanın Xarici İşlər Naziri cənab Valid Müəllim Dəməşqin azarını-bezarını kiminlə bölüşər? Və sairə və ilaxır.

Müxtəsəri, hər şey münasibətdən, ünsiyyətdən başlayan cəmiyyətdə kim Mauqli, ya da Tarzan kimi tənhalıqda böyümək istəyər ki?..

Amma sözümün toz-tozanaq təkrarı bunda deyil...

Unudulmaz İsmayıl Şıxlı auditoriyaya termosla gələrdi. Termosun vətəni sayılan Şotlandiyadan tutmuş termos istehsalında ilk yerləri tutan Almaniya və Çinin istehsal elədikləri termoslara qədər maraqlanmışam: amma İsmayıl müəllimin termosundan heç yerdə görməmişəm.

Etiraf edim ki, içindəki isti və ya soyuq şeyi olduğu kimi saxlayan bu xüsusi qaba – yəni termosa qarşı məndə böyük marağı da unudulmaz İsmayıl müəllim və onun unudulmaz termosu oyadıb. O, termosun qapağını elə üsulla, elə usdufca, elə ustalıqla açardı ki, termosun içindəki o qiymətli çaydan dolayı, sanki auditoriya ilə müəllimin isti münasibətləri də birdən-birə soyuya bilərdi.

Görünür, o böyük ustadla bağlı xatirələrdə tərifsiz də keçinmək olmur: onun ünsiyyəti bənzərsiz emosional çalarlarla dolu idi. Üstəlik, onun çox da zəngin ünsiyyət təcrübəsi var idi: İsmayıl müəllimin mühazirələrində tələbə yatardımı heç? Əstəğfürullah!

...yaxşı yadımdadır: imtahanda mənə Sofoklun "Çar Edip" faciəsinin təhlili düşmüşdü. O vaxtlar marksizim klassiklərindən sitat gətirmək dəbdə olsa da mən Hötedən sitat gətirmişdim. Çünki o, Ekkerman ilə söhbətində demişdi ki, heç kəs səhnəni və öz sənətini Sofokl qədər bilməmişdir.

İsmayıl müəllim Sofoklu bizə elə sevdirmişdi ki, arada-sırada mənə elə gəlirdi ki, Sofokl uzaq-uzaq Afina tərəflərdən deyil, Sınıq körpünün bəri üzündən, Əyriqarın ətəklərindəndir.

Faciədə Edip qərara alır ki, Korinfi tərk edib ömrünü vətənsiz səyyah kimi başa vursun. Əsərdə onun öz gözlərini çıxarması, bu münasibətlə xorun (mənbələrə görə, Sofokl özü də xalq şənliklərində xora rəhbərlik edirmiş) son sözləri – bunlar hamısı münasibətlərin soyuqlamağının, hətta sətəlcəm olmağının, necə böyük fəlakətlər gətirdiyindən xəbər verirdi. Görünür, insan – insan münasibətlərini həmişə isti saxlamaq üçün az qala dünyanın özü boyda termos lazım gələrmiş. Yoxsa İsmayıl müəllimin tabi-imtahan termosunun – bütün imtahanlardan üzü ağ çıxmış termosunun cəmi cahandakı ünsiyyəti, münasibətləri isti saxlamağa gücümü çatardı?

P.S.

Büdcəniz imkan versə, yunancada "isti" anlamını verən termos almağı da unutmayın! Amma Süsən-Sünbül mağazasında satılan termoslardan demirəm. Mirzə Qələmin və mənim xəyal gücümüzün hesabına düzəltdiyimiz (kim bilir, bəlkə də günün birində gerçək oldu) "İsmayıl" termoslarını deyirəm.

**...İsmayıl Şıxlını – "Dəli Kür"ü, "Ayrılan yollar"ı yenidən oxuyun! Oxuyun və ünsiyyətiniz də, münasibətləriniz də isti qalsın!..**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

30 sentyabr 2016-cı il
№018 (32)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## MARNEULİDƏ XALQ TEATRLARI FESTİVALI KEÇİRİLİB




Marneuli Bələdiyyəsində dörd gün ərzində Mixeil Cavaxişvili adına Gürcüstan Xalq Teatrları Festivalı keçirilib.

Bu müddət ərzində Mədəniyyət evinin səhnəsində Xalq Teatrları tərəfindən qoyulan tamaşalar tamaşaçılar tərəfindən bəyənilib. Hər gün Mədəniyyət evinin auditoriyası insanlarla dolur, alqış səsləri ətrafı bürüyürdü.

Mədəniyyət Evinin səhnəsində müxtəlif tamaşalar oynanılıb. Marneulili teatrsevərlər bu müddət ərzində bir neçə tamaşa izləyə biliblər. Lançxeti Bələdiyyəsi Xalq Teatrının “Nuqzar və Mefistofel” (rejissor David Sereteli), Bolnisi Bələdiyyəsi Xalq Teatrının “Ölüm gününün hədiyyəsi”(rejissor Zurab Xvedelidze), Saqareco Bələdiyyəsi Xalq Teatrının “Klounada”(rejissor Nikoloz Sabaşvili), Qori Dövlət Universitetinin Tələbə Teatrının “Sehirli papaq” (rejissor Anzor Qvadzabia) tamaşaları izləyənlərin ürəyincə olub.

Xatırladaq ki, Xalq Teatrları Festivalı həftəsi sentyabrın 24-ündə açılmışdı. Festivalda Gürcüstanın müxtəlif bölgələrinin səkkiz xalq teatrı iştirak edirdi.

Qeyd etmək lazımdır ki, festival həm də müsabiqə xarakteri daşıyırdı. Müsabiqədə müxtəlif nominasiya üzrə qaliblər müəyyənləşdirilmiş və xüsusi mükafatlar təqdim olunmuşdur.

Tədbir Marneuli “Mədəniyyət Mərkəzi”nin təşəbbüsü və Marneuli İcra Hakimiyyətinin dəstəyi ilə həyata keçirilib.

Turac İBRAHİMOVA

## TBİLİSİDƏ VARLAM NİKOLADZE ADINA TEATR MƏKTƏBİ FƏALİYYƏTƏ BAŞLAYIR

Tbilisidə Varlam Nikoladze adına teatr məktəbi fəaliyyətə başlayacaq.

Bu barədə teatr məktəbinin azərbaycanlılar üzrə koordinatoru Anar Rafiqoğlu öz Facebook səhifəsində məlumat verib.

Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının ən böyük problemlərindən biri də kadr çatışmazlığıdır. Teatrın bədii rəhbəri, rejissor Varlam Nikoladze bu çatışmazlığı aradan qaldırmaq, eləcə də teatra yeni abu-hava gətirmək üçün geniş tədbirlər planı həyata keçirməyə başlayıb. Planın bir hissəsi də teatr məktəbi vasitəsilə peşəkar aktyorlar yetişdirməkdir.

Anar Rafiqoğlu qeyd edib ki, teatr məktəbində aktyorluq üzrə dərslər keçiriləcək. Bundan əlavə məktəbin proqramına nitq, vokal, xoreoqrafiya kimi dərslər daxildir.

Teatr məktəbinin azərbaycanlılar üzrə koordinatoru təhsili uğurla tamamlayan tələbələrin gələcəkdə həm



peşəkar tamaşalarda iştirak edəcəklərini, həm də teatrın rəsmi aktyoru ola biləcəklərini vurğulayıb.

Teatr məktəbinə qeydiyyatın artıq başladığını bildirən Anar Rafiqoğlu, aktyorluq həvəsi və istedadı olan bütün gəncləri məktəbdə təhsil almağa dəvət edib. Məktəbdə 14 yaşından yuxarı olan hər kəs təhsil ala bilər. Təhsil müddəti 1 ildir. Təhsili başa vuran məzunlara müvafiq sertifikatlar veriləcək.

## HZ.MUSANIN MÖCÜZƏSİ GERÇƏKLƏŞİR




Hz.Musanın əsasıyla dənizi yarıb ortasında bir yol açdığı hadisəsinin bənzəri Cənubi Koreyada yaşanır.

Cənubi Koreyadakı Jindo adası hər il dünyanın ən maraqlı təbii hadisələrindən birinə şahidlik edir. İldə iki dəfə suların çəkilməsiylə dənizin ortasında 3 kilometr uzunluğunda, 40 metr genişliyində bir yol açılır və 1 saat sonra dəniz təkrar bağlanıb əvvəlki vəziyyətinə qayıdır.

Dünyanın dörd bir yanından gələn və bu sehrli anı qaçırmaq istəməyən minlərlə turist açılan dənizin ortasından qarşı tərəfə keçmək üçün həmin anda orada olmağa can atır.

## AĞILLI ŞALVAR İSTƏDİYİN KİMİ TƏRPƏNMƏYƏ KÖMƏK EDƏCƏK

Bəzi xroniki və genetik xəstəliklər hərəkət pozğunluğu doğurur. Artıq çəliksiz, qoltuq ağacı olmadan hərəkət edə bilməyən insanlara «ağıllı» şalvar kömək edəcək. Bu layihənin üzərində 7 Avropa ölkəsindən müxtəlif tədqiqat qrupları çalışır.

XoSoft adlanan geyim sistemi ayaqların aktivliyini saxlamağa, əzələ atrofiyası xəstəliklərinin qarşısını almağa kömək edəcək. Geyimin üzərindəki sensorlardan yararlanan istifadəçi gərəkli hərəkətləri ni yönəldə biləcək. Avropa Birliyi və İsveçrə hökuməti layihənin gerçəkləşdirilməsinə 5,4 milyon avro ayırıb.

Geyimin ilk funksional prototipinin 2019-cu ildə hazır olacağı gözlənilir.

## ARXEOLOQLAR GÜRCÜSTANIN CƏNUB-ŞƏRQİNDƏ YENİ TAPINTILAR ÜZƏ ÇIXARIBLAR

Gürcü və polyak arxeoloqları Gürcüstanın cənub-şərqində Beştaşenidə qazıntılar zamanı iki başsız skelet və qabın içərisində kəllə aşkarlayıblar.

Bu yay arxeoloqlar b.e.ə. XIII-VI əsrlərə aid 16 məzar aşkarlayaraq, tədqiq ediblər. Bu barədə “Polşada elm” nəşri xəbər yayıb.



Polşa arxeoloji qrupuna Varşava Universiteti nəzdindəki arxeologiya institutunun mütəxəssisi Qleb Qamburq başçılıq edib.

19-25 yaşlı kişinin və 23-25 yaşlı qadının birgə dəfn olunması maraq doğurub. Hər iki skelet sağ yanı üstə embrion pozasında qoyulub. “Maraqlı olan budur ki, hər iki ölü başsız dəfn edilib. Bundan əlavə qadının ayağında və ürək nahiyyəsində iki ox ucu aşkar edilib. Yəqin ki, bu ox ucluqları onun ölümünə səbəb olub” – Q. Qamburq tapıntılar barədə danışarkən bildirib. Qəbirdən dəmir xəncər, həndəsi naxışlı bürünc biz, habelə qablar üzərə çıxarılıb.

Arxeoloqlar başqa bir qəbirdə qadın başı aşkarlayıblar. Kəllə dayaz qabda dəfn edilib.Onun 17-25 yaşlarında olması təxmin edilir.

Digər bir kişi qəbiri də artefaktlarla zəngindir. Ölü embrion pozasında yerləşdirilib. Buradan maral və at təsvirləri ilə bəzədilmiş balta, bürünc və dəmir ox ocluqları, heyvan sümükləri və buynuzları tapılıb.

Arxeoloqlar qəbirlərdə döyüşçülərin və əkinçilərin dəfn edildiyini dəqiqləşdiriblər. Tapılan çoxsaylı silahlar sübut edir ki, yerli əhali hərbiləşmiş vəziyyətdə yaşayırmış. Qamburq əlavə edir: “Yerli cəmiyyətin hərbi fəaliyyəti təəccüblü deyil. Həmin vaxtlar buraya Urartu və Assuriya qoşunlarının yürüşləri tez-tez baş verirdi”.

Beştaşenidə son illər arxeoloji qazıntılar Gürcüstan və Polşa hökumətlərinin dəstəyi ilə intensiv şəkildə aparılır.

## MARNEULİNİN YENİ KİTABXANASI HƏDİYYƏ KİTABLAR ALDI

Marneuli şəhərində yenicə istifadəyə verilmiş kitabxanaya bu günlərdə Gürcüstan Parlamentinin Milli Kitabxanası 800 kitab hədiyyə edib.



Kitabların təqdimat mərasimində Marneuli Bələdiyyəsinin rəhbərləri, Gürcüstan Parlamentinin Milli Kitabxanasının baş direktorunun müavini Mirian Xositaşvili və fondlar departamentinin baş mütəxəssisi Nino Xvedelidze iştirak etmişlər.

Qeyd etmək lazımdır ki, yaxınlarda Marneuli kitabxanasının rəsmi açılışı olacaq və hazırda kitabxananın bölmələri müxtəlif məzmunlu kitablarla doldurulmaqdadır.

Marneuli Bələdiyyəsinin Özünüidarəetməsi sözügedən prosesə qoşulan hər kəsə bu xeyirxah təşəbbüsə görə təşəkkürünü bildirir.

Turac İBRAHİMOVA

## İNSANI 120 İL YAŞADAN GÖBƏLƏK



Çində yetişdirilən, 1,1 metr diametrədək böyüyən “Reichi” göbələyi insan ömrünü 120 ilə qədər uzadır.

Yapon və Çin səhiyyəsində istifadə olunan bu göbələk “ölümsüzlük göbələyi” adlanır.

Palıd və ərik ağaclarının kötüyü üzərində təxminən 9 aya yetişdirilən “ölümsüzlük göbələyi” taxta kimi sərt və acı olduğu üçün yeyilmir, təzə və ya qurudularaq toz halına gətirilir, suda həll edilərək istifadə olunur.

“Reishi” ekstraktı əlavə olunan su təxminən 2 saata qədər qaynadılmalı və dərhal istifadə edilməlidir. Tərkibində yüksək miqdarda antioksidant olduğu üçün təxminən yarım saat içində təsirini itirir.

İnsanı xərçəng başda olmaqla, bir çox xəstəlikdən qoruyan “Reishi” göbələyindən ən çox istifadə edən ölkə Yaponiyadır. Yaponlar bu göbələyin insan ömrünü 120 ilə qədər uzatdığına inanırlar.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 595 92 25 70
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.